# Cənubi Azərbaycanda XVIII əsrin dövlət qurumları - məşhur Urmiya xanlığı...

**"Azərbaycan dövləti, Qərbi Azərbaycan, Cənubi Azərbaycan" rubrikasında Cənubi Azərbaycan xanlıqlarından Urmiya xanlığı barədə danışacağıq. Urmiya qədim Azərbaycan dövlətlərinin yarandığı tarixi ərazilərimizdən biridir ki, burada indinin özündə də dövlətçilik tariximizi, mədəniyyətimizi, insanlarımızın həyat tərzini ifadə edən örnəklər var.**

Baxmayaraq ki, əvvəlcə Pəhləvi rejimi, bu gün isə molla hakimiyyəti Urmiyadan bizim izlərimizi silməyə çalışır, böyük tarixi mədəni irsimizi məhv edir, başlıcası isə Urmiya gölünü qurutmaqla həm ekosid törədir, həm də yerli əhalinin, yəni Azərbaycan türklərinin buradan başqa yerlərlə köçünə nail olmaq istəyir. Molla rejimi Urmiya gölünə qarşı soyqırım həyata keçirir... Buna soyqırım demək olar, çünki Urmiya gölünü qurutmaqla bizim irsimizi məhv edir...

### Urmiya xanlığını kim yaradıb?

Bildiyimiz kimi, Nadir şah Əfşarın ölümündən sonra həm Azərbaycanın Güneyində, həm də Quzeyində xanlıqlar yaranıb. Güneydə qurulan səkkiz xanlıqdan biri Urmiya xanlığı idi.

Urmiya xanlığı 1747 və 1868-1869-cu illər arasında, mərkəzi Urmiya şəhəri olmaqla, Cənubi Azərbaycanın qərbində yerləşmiş ən nüfuzlu xanlıqlardan biri kimi tarixə düşüb. Urmiya xanlığının tarixini ilk dəfə mərhum tarixçi Hüseyn Dəlili əsasən farsdilli mənbələrə əsaslanaraq tədqiq edib. Bu barədə xanlıq haqda internet resdurslarında verilən məlumatda bildirilir. Tədqiqatçılara görə, xanlığın əsasını Nadir şah Əfşarın əmisi oğlu, Əfşar tayfasından olan Fətəli xan Əfşar qoyub. O, hətta Nadir şahın sərkərdəsi olan Azad xanı da öz tərəfinə çəkə bilir və bundan sonra, o, mərkəzləşdirmə siyasətini həyata keçirməyə başlayır. İlk olaraq Təbrizə hücum etdi, Təbriz asılı hala salındı və Təbrizi paytaxt etdi. Daha sonra Xoy xanı Şahbaz xan da Fətəli xanla ittifaq bağlamağa məcbur oldu. "Bundan sonra isə Qaradağ, Marağa və Sərab xanlıqları Urmiya xanlığından asılı vəziyyətə salındı. O,1751-ci ildə Azad xanı onunla ittifaqdan imtina edən İrəvan xanlığı üzərinə göndərdi. İrəvan xanı Mir Mehdi Kartli çarı II İraklidən kömək istədi. II İrakli Qazax və Borçalı azərbaycanlılarından topladığı ordunu Mir Mehdi xana köməyə göndərdi. Azad xan geri oturuldu. Beləliklə, Fətəli xan Əfşar Maku və Ərdəbil xanlıqları istisna olmaqla, bütün Cənubi Azərbaycan xanlıqlarına öz hakimiyyətini yaya bildi.

Urmiya xanlığının hökmdarı Fətəli xan Əfşar Nadir şah Əfşarın ən yaxın adamlarından biri idi və Əfşarlar tayfasına mənsub idi. Fətəli xan Əfşar Cənubi Qafqazın tutulması və İranda ali hakimiyyət uğrunda mübarizəyə də xüsusi əhəmiyyət verirdi".

### Ali hakimiyyət uğrunda mübarizə...

Tarixçilər yazır ki, bu məqsədlə müxtəlif xanlıqlara müttəfiqlik haqqında müraciətnamələr göndərildi. İrəvan xanlığına hücum uğursuz olduqda hücum istiqaməti Gürcüstana yönəldi. Çar II İrakli məğlub edildi.

Fətəli xan indi İran adlanan ölkədə ali hakimiyyət uğrunda mübarizə aparan Kərim xan Zəndin üzərində qalib gəldikdən sonra hakimiyyətini Mərkəzi və Qərbi İrana yaya bildi (1752). İranın şimalında möhkəmlənən Məhəmmədhəsən xan Qacarla mübarizə çətin oldu. Məhəmmədhəsən xan onun Kərim xan Zəndlə müharibəsindən istifadə edərək Gilanı tutan Fətəli xanı oranı tərk etməyə məcbur etdi. Bununla kifayətlənməyərək Təbrizi, sonra isə Urmiyanı tutdu (1757). Yalnız Məhəmmədhəsən xanın öldürülməsilə asılılıqdan qurtulmaq mümkün oldu (1759). Fətəli xan Təbrizə qayıtdı və hakimiyyətini möhkəmləndirdikdən sonra Qarabağa hücum etdi və onu asılı vəziyyətə saldı (1759).

Məhəmmədhəsən xandan sonra İranda başlıca qüvvəyə çevrilən Kərim xan Zənd Urmiyanı 1763-cü ildə 9 ay mühasirədə saxlayır. Nəhayət Urmiya xanlığını tutan Kərim xan Zənd Fətəli xan Əfşarı Şiraz qonaqlığında edam etdirir.

### Urmiya xanlığı yenidən müstəqil siyasət yollarında...

Tarixçilər yazır ki, Kərim xan Zəndin ölümü ilə xanlıq yenidən müstəqil siyasət yeritməyə başladı. Bu zaman Məhəmmədhəsən xan Qacarın oğlu Ağa Məhəmməd xan Urmiyalı Əli xanı yanına çağırıb gözlərini çıxartdı. Ağa Məhəmməd xanın çəkilməsindən sonra İmamqulu xan hakim seçildi. O, Sərablı Əli xan Şəqaqi ilə Xoylu Əhməd xana qarşı ittifaq bağladı. Müttəfiqlər Təbriz yaxınlığındakı döyüşdə məğlub oldular. Əmiraslan xan Əfşar Urmiyaya hakim təyin edildi, lakin onun xanlığı uzun çəkmədi. Məhəmmədqulu xan yeni hakim təyin olundu. Ağa Məhəmməd xanın hücumundan sonra Uşnu qalasına çəkildi. Qacarın ölümü ilə müstəqilliyini bərpa edən xanlıq, İran taxtına çıxan Fətəli şaha tabe oldu.

Tarixçilərin verdiyi bilgiyə görə, Azərbaycanın ən qədim və ən böyük vilayətlərindən biri olan Urmiya xanlığı şimalda Salmas, şərqdə Urmiya gölü, cənubda Gürcüstan, qərbdə Türkiyə və İranla həmsərhəd idi. Xanlığın şərqində yerləşən Urmiya gölünün əyalət üçün böyük strateji, iqtisadi və siyasi əhəmiyyəti vardı. Bu göl vasitəsilə Azərbaycanın digər cənub xanlıqları ilə ticarət əlaqələri qurulmuşdu. Urmiya əyaləti Urmiya gölünün sahilləri istisna olmaqla, hər tərəfdən böyük dağ silsilələri ilə əhatə olunmuşdur. Urmiyada dağ torpaqlarının yuxarı hissəsi daha çox qara torpaqla örtüldüyündən burada quru əkinçilik məhsullarının becərilməsi üçün çox əlverişli şərait var idi. Sərhəd dağlarının bəzilərinin səthi ilin bütün fəsillərində qarla örtü olurdu. Bu da, vilayətin suya olan tələbatını tamamilə ödəmiş, kiçik çayların və dərələrin yaranmasına səbəb olmuşdur.

### Urmiya mahalları...

Xanlıq mərkəz Urmiya şəhərindən və mahallardan ibarət idi. Mahallar nahiyələrə, nahiyələr kəndlərə, obalara bölünürdü. Xanlıq dönəmindən əvvəl mövcud olmuş inzibati-ərazi quruluşu xanlıqlar dövründə də olduğu kimi saxlanmışdı. Urmiya vilayətinin inzibati-ərazi vahidlərindən biri də Dol mahalıdır. Dol mahalının ərazisi Qaşqagədikdən Xantavusa qədərdir. Mahal qərbdən Kurd, Meh dağları, şimaldan Baranduz mahalı ilə həmsərhəd idi. Mahalın tabeliyində Rəşki-Sultanava, Pirəli, Kamanə, Nizava, Nara, Oğul Daşağıl, Birinci Kənan, İkinci Kənan, Bərdəxoş, Nazlı, Papaz, Zivə, Carava, Şeytanava, Samurta, Xudrava, Dölə, Dördbənd, Talava, Cuşbər, Balıstan, Xan, Tavus və Təzəkənd kəndləri var idi.




Nazlı mahalı da Urmiyanın mahallarından biridir. Mahal şimaldan Ənzəl, şərqdən Urmiya gölü, cənubdan Sumay, qərbdən isə Urmiyanın özü ilə həmsərhəd idi. Mərkəzi Saatlı qəsəbəsi idi. Nazlı mahalında Avşar elinin Kuhgiluyəli (Kəhgəhli) oymağı ya- şam sürürdü. Rövzə mahalı isə şimaldan Sumay, şərqdən Nazlı, cənubdan Tərgəvər, qərbdən Urmiya ilə sərhədlənir. Rövzə mahalına 25 böyük və kiçik kənd bağlı idi. Kəlbəli sultan Qasımlı elin Qırxlı oymağını Rövzə çayının sahilində yerləşdirmişdi.

Sulduz mahalı Urmiya gölünün cənubunda yerləşən mahal öz adını XIII əsrdə monqollarla Azərbaycana gəlmiş Sulduz ulusundan alıb. Mahal cənub tərəfdən Firəngi dağları ilə əhatə edilmişdi. Mahal Avşar eli tərəfindən idarə olunurdu. Baranduz mahalı öz adını Bəradost tayfalarından alıb. V. Minorski Bəradost tayfası haqqında yazır: "Bəradostlar dövri: "Aləm-araya" görə, Şah Təhmasib zamanında Urmiyada böyük əmirlər vali olarkən Şahsevən kimi tanınan Bəradost tayfası Kara Tac, Tərgəvər ilə Mərgəvəri almış idi." Mahal cənubdan Tərgəvər, şərqdən Urmiya mahalları şimaldan Balaşan yüksəkliyi, qərbdən Şəkən bulağı, Dilavan və Nuşirəvan gədiyi ilə həmsərhəddir. Mahalın kəndləri dağ ətəklərində və düzənliklərində yerləşmişdi.

Ənzəl mahalı bəzi mənbələrdə Qarabağ da adlanır. Ənzəl mahalı şimaldan Salmas, şərqdən Urmiya gölü, cənubdan Sumay mahalı və qərbdən Baranduz çayı ilə həmsərhəddir. Mahal I Şah Abbas dövründən (1611-ci ildən) başlayaraq, xanlıqlar dövrünədək Yəhya bəy və daha sonra onun nəsli tərəfindən irsi olaraq soyurqal və tiyul hüququ əsasında idarə edilirdi.

Sayınqala mahalı isə günümüzdə Şahindej adlanır. Mahal Marağanın cənub-şərqində yerləşirdi və şimaldan Əcirli, Çahardol mahalları, cənubdan Saqqız mahalı, şərqdən Tikab mahalı, qərbdən Bokan mahalı ilə həmsərhəd idi.

Üşnü mahalı şimaldan Urmiya, şərqdən Sulduz, qərbdən Qasımlı dərəsi ilə həmsərhəddir.Üşnü ümumiyyətlə dağlıq yerdir. Lakin onun əsas kəndləri mahalın mərkəzində uzanan düzənlikdə yerləşir. Qaradağ və Kəlləşin dağları arasındakı dərələrdən axan Əlixan və Ağçay bu düzənliyə tökülür. Mahalın mərkəzi Üşnü şəharidir.

Dəşt mahalı cənubdan Mərgəvər, şərqdən Urmiya gölü, şimaldan Bərrə, Rövzə, qərbdən Mirşeyxi və Zərinə çayları ilə həmsərhəd idi. Mahalın ərazisi əsasən dağlıq və təpəlikdən ibarətdir.

Mərgəvər mahalı Şəmdinan, Ovsi, Qəsəbəli kəndləri və Bərdəsur mahalı ilə həmsərhəd idi. Mahalın ərazisi əsasən dağlıqdır. Onun ən böyük düzənliyi uzunluğu 5 və eni 1, 5 mil olan ovalıqdır. Məşhur Dumdum qalası Mərgəvər mahalında yerləşirdi.

Tərgəvər mahalı Cənubdan Dəşt, şərqdən Urmiya mahalları, şimaldan Nazlı çayı, qərbdən Mərgəvərlə həmsərhəd idi. Mahalın əsas düzənliyi Deyr dərəsindən başlayaraq şimal-şərqə Bərdərəş və Ərzin qalalarına qədər geniş məsafədə uzanır. Mahalın ərazisi Nazlı çayından ayrılan və Meşgin adı daşıyan qolun suyu ilə təmin edilirdi. Məhəmmədqulu xan Avşarın hakimiyyəti dönəmində Tərgəvər mahalının naibi İbrahim xan idi.

Sumay mahalı Cənubdan Baranduz, şərqdən Urmiya, şimaldan Salmas mahalı, İskəndər və Sultan adlı kiçik dağlarla həmsərhəd idi. Mahal dağlıq sahə olduğu üçün onun sakinləri əsasən maldarlıqla məşğul olurdular. Eyni zamanda burada əkinçiklik də yayılmışdır.

Bərdəsur mahalı Mərgəvər, Şəmdinan, Urmiya və Tərgəvər mahalları ilə əhatə edilmişdi. Onun inzibati mərkəzi yüzdən artıq evi olan Bərdəsur kəndi idi. Bu qala yerli hakimlərin iqamətgahı idi. Qalada dövlət işləri ilə məşğul olan hissə "Ələmlik", yerli hakimin ailəsinin yaşadığı hissə isə "Hərəmlik" adlanırdı.

Xanlığın kiçik mahallarından biri olan Bəykişili şimaldan Nazlı çayı, şərqdən Urmiyə gölü, cənubdan Urmiya mahalı, qərbdən Baranduzla həmsərhəddir. Mahal öz adını Avşar elinin Bəykişili oymağından alıb. Bəykişili oymağı əsasən Urmiya bölgəsində köç-düşlə məşğul id. Tarixi ədəbiyyatda bəzən Bəgəşli, Bəgişli kimi də yazılır.

Urmiya mahalının inzibati mərkəzi Urmiya şəhəri idi. Şəhər əhalisinin suya olan ehtiyacı Urmiya və yaxud "Şəhər" çayı adlanan çay vasitəsilə təmin edilirdi. Əhalinin əsas peşəsi bağçılıq, xüsusilə üzümçülük, sənətkarlıq, ticarət, əkinçilik və maldarlıq idi. Xanlıqlar dövründə şəhər qalın və möhkəm daş hasarla əhatə edilmişdir. Qala divarlarının ətrafında geniş və dərinxəndəklər qazılmışdı. Şəhə daxil olmaq üçün qala divarlarında Torpaqqala, Hazaran, Bazarbaş, Şah Yurdu (Yurte-şah), Hindi, Məşəd, Ərk, adlı darvazalar var idi. Xanlığın mahalları çox olub, biz sadəcə bir neçəsi barədə yazdıq. Heç şübhəsiz, bu yazıdakı faktlar alimlərin tədqiqatları sayəsində araya-ərsəyə gəldi. Növbəti saylarımızda digər Güney Azərbaycan xanlıqlarından bəhs edəcəyik.

*İradə SARIYEVA*